

*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
*Heydər Əliyev*

***Heydər Əliyev - xalq birliyi əbədidir!***

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 23 (418) | 29 dekabr 2014-cü il | Qiymәti 50 qәpik

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı**


## Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər"in inşası başa çatan ofis binası və "Bakı Ağ Şəhər" layihəsi çərçivəsində görülən digər işlərlə tanış olublar




## Bakıda Heydər məscidinin açılışı olub

### *Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər*

Dövlətimizin başçısının tapşırığı ilə inşa olunan bu yeni məscid 12 min kvadratmetr sahədə salınıb. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib, ornamentlərin zənginliyi fasadda xüsusi arxitektura harmoniyası yaradıb. Burada 95 metr hündürlüyündə 4 minarə inşa olunub.

Qeyd edək ki, Prezident İlham Əliyev məscidin tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə yaxından maraqlanıb, mütəmadi olaraq buraya gələrək görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib. Ümumi sahəsi 4200 kvadratmetr olan məscidin daxilində də xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. 55 metr hündürlüyündə olan baş günbəz, o cümlədən hündürlüyü 35 metr olan ikinci günbəz məscidin daxilinə xüsusi gözəllik verir.

Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Heydər məscidinin açılışı münasibətilə keçirilən mərasimdə iştirak etdilər.

Mərasim "Qurani-Kərim"dən ayənin oxunması ilə başladı.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.



## Yeni iliniz mübarək, əziz ağstafalılar!

Əziz ağstafalılar! Yurdumuza yeni ilin qədəm qoymasına çox az qalır. Vidalaşacağımız 2014-cü il ölkəmizin, o cümlədən rayonumuzun tarixində ən uğurlu illərdən biri kimi uzun illər yaddaşlarımızda qalacaqdır.

2014-cü il hamı kimi biz ağstafalılar üçün də ən əlamətdar illərdən biri olmuşdur. Yola salacağımız 2014-cü ildə rayonun sosial-iqtisadi həyatında böyük dəyişikliklər olmuş, doğma Ağstafamızın abadlaşdırılması, yenidən qurulması, vətəndaşların sosial şəraitlərinin yaxşılaşdırılması üçün çox böyük məqsədyönlü layihələr həyata keçirilmişdir. Təkcə son üç ildə Ağstafada səkkiz yeni məktəb binası inşa olunmuş, 120 kilometr yola asfalt örtük salınmış, 150-dən çox vətəndaşın mənzil-kommunal şəraiti yaxşılaşdırılmış və yeni mənzillərə köçürülmüş, 20 ictimai yaşayış binasında cari təmir işləri aparılmış, dam örtüyü dəyişdirilmişdir. Şəhərimizin 12 küçəsində abadlıq işləri aparılmış, su-kanalizasiya sistemi yenidən qurulmuş, 28 yaşayış məntəqəsinin təbii qazla təmin olunması tam başa çatdırılmışdır. Bütün bunlar möhtərəm prezidentimiz cənab İlham Əliyevin tapşırığı əsasında həyata keçirilmişdir.

Ağstafanın gələcək inkişafının təmin olunması üçün məqsədyönlü işlər bu gün də uğurla davam etdirilir. Rayon mədəniyyət evinin binasının əsaslı təmir olunması, ud formasında yeni musiqi və incəsənət mərkəzinin inşa edilməsi, Rayon mədəniyyət evinin, Dağkəsəmən kənd mədəniyyət evinin, Poylu kənd 1 saylı uşaq bağçasının əsaslı təmir olunması, fizioterapiya və reobilitasiya mərkəzinin yeniləşdirilməsi onu göstərir ki, ağstafalılar qarşıdan gələn 2015-ci ildə daha xoş, daha əlamətdar günlərin, hadisələrin şahidi olacaqlar. Mən əminəm ki, gördüyümüz işlər, həyata keçirdiyimiz tədbirlər bütün ağstafalıların, şəhərimizə gələn qonaqların hamısının ürəyincədir. Söz yox ki, yeni ildə bu cür xeyirxah işləri böyük ruh yüksəkliyi ilə davam etdirəcək, sizin hamınızın köməyi və dəstəyi ilə qarşıya qoyduğumuz bütün işlərin həyata keçirilməsinə nail olacağıq.

Əziz ağstafalılar! Mən qarşıdan gələn Dünya azərbaycanlılarının beynəlxalq həmrəylik günü və yeni il münasibətilə sizləri ürəkdən təbrik edir, hamınıza xoşbəxtlik, ailə səadəti, can sağlığı arzulayıram.

Yeni iliniz mübarək!

***Məhərrəm Quliyev,***
***Ağstafa rayon İcra Hakimiyyətinin Başçısı***

# Yubiley mərasimi

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu ilin əvvəlində görkəmli dövlət xadimi, ömrünü ana təbiətin qorunmasına sərf etmiş yorulmaz alim Mehdi Mustafayevin anadan olmasının 100 illiyini qeyd etmək haqqında sərəncam imzalamışdı. Həmin sərəncama uyğun olaraq adlı-sanlı təbiət aliminin, əvəzsiz şəxsiyyətin yubileyini layiqincə qeyd etmək məqsədilə əvvəlcədən bir sıra tədbirlər görülmüşdür.***





Belə tədbirlərdən biri də bu günlərdə Ağstafada keçirilmişdir. Həmin gün şəhərimizin girəcəyində "Sezar" mədəniyyət və istirahət ocağının yanında Mehdi Mustafayevin adını daşıyan parkın önünə xeyli adam toplaşmışdı. Toplaşanlar arasında qonaqlar daha çox idi. Gəncə Aqrar Universitetindən, Bakının ali təhsil ocaqlarından, meşəçilik müəssisələrindən elm adamları, tələbələr, peşəkar meşəçilər yubileydə iştirak etmək üçün Ağstafaya gəlmişdilər. Yubilyarın parkın ortasında qoyulmuş əzəmətli büstü önündə anma mərasiminin başlanğıcı oldu. Yubileyə gələn qonaqlar, Mehdi Mustafayevin ailə üzvləri və doğmaları, Aqrar Universitetin müəllim və tələbələri büstün önünə əklil və tər çiçəklər qoydular.

Sonra yubiley tədbiri Ağstafadakı Heydər Əliyev Mərkəzində davam etdirildi. Mərasimi giriş sözü ilə Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev açdı. O, qeyd etdi ki, yüz il bundan əvvəl rayonumuzun Tatlı kəndində dünyaya gəlmiş Mustafayev çox şanlı bir həyat yolu keçmişdir. Gənc yaşlarında Kənd Təsərrüfatı İnstitutunu bitirərək aqronom ixtisası aldıqdan sonra o, Şamaxı, Şamxor (indiki Şəmkir) və Tovuz rayonlarında müxtəlif vəzifələrdə çalışaraq biliyi, bacarığı və işgüzarlığı ilə böyük şöhrət qazanmışdır. Tovuz rayon partiya komitəsinin birinci katibi olarkən gənc mütəxəssis daha yüksək nailiyyətlər qazandığına görə 1948-ci ildə Sosialist Əməyi Qəhrəmanı fəxri adına və Lenin ordeninə layiq görülmüşdür.

Bu böyük uğurdan sonra Mehdi Mustafayevi daha yüksək vəzifəyə-Meşə Təsərrüfatı naziri vəzifəsinə irəli çəkirlər. Həmin vəzifədə işlədiyi illər ərzində bu böyük təbiət alimi mövcud meşəliklərin qorunması, yeni meşələr salınması, yaşıllıqların çoxaldılması sahəsində misilsiz işlər görmüş, tədbirlər həyata keçirmişdir.

Yubileyə toplaşanlara görkəmli dövlət xadimi Mehdi Mustafayevin həyat fəaliyyətindən, Meşə təsərrüfatı naziri kimi gördüyü misilsiz işlərdən, bir çox rayonlarda tarlaqoruyucu meşə zolaqlarının yaradılması sahəsində əvəzsiz xidmətlərindən bəhs edən geniş film nümayiş etdirildi.

Sonra Gəncə Aqrar Universitetinin alimləri və tələbələri sağlığında onun rəhbərliyi altında işləmiş şəxslər tədbirdə çıxış etdilər. Onlar Mehdi Mustafayevin bir alim kimi gənc alimlərə, tələbələrə qayğısından, bir nazir kimi işdə ciddiliyindən və tələbkarlığından, həyatda isə çox mehriban və qayğıkeş olduğundan danışdılar, onunla bağlı xatirələrini söylədilər.

Tədbirin sonunda Ağstafa şəhər musiqi məktəbi ansamblının üzvləri maraqlı proqramla konsert verdilər.

Yubiley tədbirindən sonra Mehdi Mustafayevin ailə üzvləri qonaqlarla və rayon rəhbərləri ilə birlikdə Tatlı kəndinə getmiş, yubilyarın yaşadığı köhnə evi ziyarət etmiş, sonra kənddəki tam orta məktəbdə olmuşlar. Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev və yubilyarın qızı-Respublika Tələbə Qəbulu Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə məktəb kollektivi ilə görüşmüş, burada Mehdi Mustafayevin 100 illik yubileyi münasibətilə yaradılmış xüsusi guşəyə baxmışlar. Məleykə xanım onun atasının xatirəsini əziz tutduqları üçün kənd ziyalılarına-öz həmyerlilərinə dərin minnətdarlığını bildirmişdir.

# İlin son görüşləri

Rayonun sosial-iqtisadi inkişafının təmin olunması, vətəndaşların problemlərinin həll edilməsi, onların təkliflərinə, xahişlərinə və müraciətlərinə diqqətlə yanaşılması Rayon icra hakimiyyətinin rəhbərliyinin diqqət mərkəzində duran ən mühüm məsələlərdən biri olmuş və bu istiqamətdə müntəzəm olaraq əməli tədbirlər həyata keçirilmişdir. Bu kimi məsələlərin həllində Rayon icra hakimiyyəti başçısının yerlərdə ictimaiyyətlə keçirdiyi görüşlər çox böyük rol oynamış və bu kimi tədbirlər müntəzəm olaraq davam etdirilmişdir.



Rayon icra hakimiyyətinin başçısı M. Quliyev bu günlər 2014-cü ilin son görüşlərini keçirmişdir. Dekabr ayının sonunda rayon mərkəzindən xeyli aralıda yerləşən Köçvəlli kəndində keçirilən görüş daha maraqlı olmuş və həmin görüşdə kənd sakinlərini narahat edən bir çox məsələlərə aydınlıq gətirilmişdir.

Soyuqbulaq qəsəbəsini və Köçvəlli kəndini əhatə edən bu inzibati ərazi dairəsində 233 nəfərdən çox əhali yaşayır. Son illər həmin yaşayış məntəqələrinin abadlaşdırılması istiqamətində xeyli iş görülmüşdür. Soyuqbulaq qəsəbəsində inşa edilən yeni məktəb binası, Ağstafa-Sadıxlı yolunun əsaslı təmir edilməsi bu ərazidə yaşayan sakinlərə ilin ən dəyərli töhvələrindən biri olmuşdur.

Qeyd olunan yaşayış məntəqələrinin sakinləri ilə keçirilən bu maraqlı görüşdə çıxış edənlər onları narahat edən məsələlərə toxunmuş, bir sıra təkliflər irəli sürmüşlər. Köçvəlli kənd sakini Rafiq Alıyev öz çıxışında kənd sakinlərinin yanacaq sarıdan çətinlik çəkmələrini qeyd edərək kəndə təbii qazın verilməsində onlara köməklik göstərilməsini xahiş etdi.

Kənd orta məktəbinin müəllimi Mahirə Əliyeva isə öz çıxışında göstərdi ki, magistral yoldan kəndin mərkəzinə və kənd orta məktəbinə gələn yollar olduqca yararsız vəziyyətdədir. O, həmin yolların təmir edilməsində kənd sakinlərinə köməklik göstərilməsini xahiş etdi.

Kənd sakini Səbriyyə Hacıyeva çıxış edərək öz şəxsi problemindən danışdı. O, ailəsində xəstə uşağın olduğunu qeyd edərək, həmin uşağın müalicə edilməsində ona yardım göstərilməsini xahiş etdi.

Rayon icra hakimiyyətinin başçısı M. Quliyev çıxış edən kənd sakinlərinin hər birinə öz münasibətini bildirdi və əmin etdi ki, əvvəlki illərdə olduğu kimi, bundan sonra da rayon rəhbərliyi bu yaşayış məntəqəsinin sosial problemlərinin, eləcə də ayrı-ayrı vətəndaşların problemlərinin həll edilməsini həmişə diqqət mərkəzində saxlayacaq və onların hamısına imkan daxilində köməklik göstəriləcəkdir. M. Quliyev çıxışının sonunda kənd sakinlərini qarşıdan gələn dünya azərbaycanlılarının beynəlxalq həmrəylik günü və yeni il münasibətilə təbrik etdi, onların hamısına ailə səadəti, xoşbəxtlik arzuladı.

***İ. Əliyev***

# Bələdiyyə seçkiləri başa çatdı

Respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da dekabrın 23-də bələdiyyə seçkiləri keçirilmişdir. 106 saylı Tovuz-Qazax-Ağstafa və 108 saylı Ağstafa seçki dairələri üzrə təşkil edilmiş 43 məntəqədə seçkilər mütəşəkkil, demokratik və şəffaf olmuşdur. Səsvermə zamanı seçki məntəqələrində heç bir pozuntu, nöqsan qeydə alınmamışdır. Müxtəlif partiyalardan və təşkilatlardan olan müşahidəçilərin seçkinin gedişi barədə rəyləri müsbət olmuşdur.

Rayon üzrə bələdiyyə seçkilərində iştirak edəcək 48.812 nəfər seçicinin 40 faizindən çoxu seçki məntəqələrinə gələrək bəyəndikləri namizədlərə səs vermişlər. Beləliklə, rayonumuzun şəhər, qəsəbə və kəndlərində mövcud olan 29 bələdiyyəyə 265 nəfər üzv seçilmişdir.

Müvəffəqiyyətlə yekunlaşan bələdiyyə seçkisi xalqla müstəqil dövlətimizin sarsılmaz birliyini bir daha nümayiş etdirdi.



# Piriliyə təbii qaz verildi

***İyirmi ildən sonra rayonun ən iri yaşayış məntəqələrindən biri olan Pirili kəndinə mavi yanacaq verildi. Bu əlamətdar hadisə kəndin bütün sakinlərinin hədsiz sevincinə səbəb oldu. Çox qısa bir vaxtda-cəmi iyirmi yeddi gün ərzində dövlət proqramı çərçivəsində kəndin qazlaşdırılması üçün nəzərdə tutulmuş bütün işlər tam başa çatdırılmışdır. Həmin müddətdə kəndə 28.797 paqonometr müxtəlif diametrli qaz xətti çəkilmiş, 242 abonentin mənzilində məişət qaz sayğacları və fərdi tənzimləyicilər quraşdırılmışdır.***

Kəndə təbii qazın verilməsi münasibətilə keçirilən tədbirdə Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev ictimaiyyət qarşısında çıxış edərək bu əlamətdar gün münasibətilə kənd sakinlərinə göz aydınlığı verdi. M. Quliyev qeyd etdi ki, yaşadığı yerdən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının məişət şəraitinin daha da yaxşılaşdırılması dövlətimizin qarşıya qoyduğu ən mühüm vəzifələrdən biridir. Möhtərəm prezidentimiz cənab İlham Əliyevin qarşıya qoyduğu ən vacib məsələlərdən biri 2015-ci ilin sonunadək hər bir ailənin, hər bir vətəndaşın mənzilində mavi yanacağın olmasını təmin etməkdir. Bu mühüm vəzifə hər yerdə olduğu kimi, Ağstafada da uğurla həyata keçirilir.

Yığıncaqda Rayon qaz istismar idarəsinin müdiri Elxan Məmmədov çıxış edərək göstərdi ki, vətəndaşların mavi yanacaqla təmin olunması Rayon Qaz İstismarı İdarəsinin qarşısında duran məqsədyönlü işlərdən biridir. Bu gün bizim ən vacib işimiz Kür çayının sol sahilində yerləşən 11 yaşayış məntəqəsini mavi yanacaqla təmin etməkdən ibarətdir. Artıq xeyli vaxtdır ki, bu şərəfli işin icrasına başlamışıq. Həmin kəndlərdə təbii qazın bərpa olunub verilməsi məqsədi ilə magistral daşıyıcı qaz kəmərinin 53 kilometrində diametri 280 millimetr olan qaz xəttinin çəkilişi işinə başlanılmışdır. Biz Pirili kəndinin vətəndaşlarına bəxş etdiyimiz sevinci bu gün bu tədbirdə iştirak edən adamların üzündən hiss edirik. Mən bu günkü tədbirdə onu da bildirmək istəyirəm ki, 2015-ci ilin sonunadək bu sevincli anlar Kür çayının sol sahilində yaşayan vətəndaşlara da qismət olacaqdır.

Yığıncaqda iştirak edən Qaradağ 2008 podratçı tikinti təşkilatının rəhbəri Arzuman Abdulkərimov çıxış etdi. O, göstərdi ki, biz çalışacağıq ki, Kür çayının sol sahilində yaşayan vətəndaşlara təbii qazın verilməsi işini ilin sonunadək yox, ilin birinci yarısında başa çatdıraq. Bunun üçün biz inşaatçılar var qüvvəmizi sərf edəcəyik. Mən inşaatçılarımız adından Pirili kəndinə təbii qazın verilməsi münasibətilə bütün kənd sakinlərini təbrik edir, onlara daha xoş günlər arzulayıram.

Tədbirdə çıxış edən kənd sakinləri onlara göstərilən bu əvəzsiz diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Rayon icra hakimiyyətinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər.

Yığıncağın sonunda Rayon icra hakimiyyətinin başçısı kənd ağsaqqalları ilə birlikdə kəndə mavi yanacağın verilməsini bildirən rəmzi məşəli alovlandırdı.

* * *

Bu gün qəzetimiz çapa hazırlanarkən redaksiyamıza bildirdilər ki, rayonun Qırılı kəndinə də təbii qaz verildi.

***İ. Əliyev***

# Eynallıda mədəniyyət və istirahət parkı inşa olundu



Rayonun ən iri yaşayış məntəqələrindən biri olan Eynallı kəndi gündən-günə abadlaşır. Cari dərs ilində kənddə müasir tipli yeni məktəb binasının tikilib istifadəyə verilməsi bütün kənd əhalisinin böyük sevincinə səbəb olmuşdu. Bu sevincli və fərəhli günlərlə yaşayan kənd sakinləri bu günlər daha bir əlamətdar hadisənin şahidi oldular.

Xeyli vaxt idi ki, kəndin mərkəzində inşa olunmuş məktəb binasının yaxınlığında mədəniyyət və istirahət parkının tikintisinə başlanılmışdır. Kənd bələdiyyəsinin sədri İltifat Əliyevin təşəbbüsü və dəstəyi ilə inşa edilən parkın tikintisi bu günlər tam başa çatdırılmışdı.

Müasir üslubda inşa edilən həmin park öz gözəlliyi və görkəmi ilə kənd sakinlərinin, buraya gələn hər bir qonağın diqqətini özünə cəlb edir və kimliyindən asılı olmayaraq hamı bu gözəl istirahət mərkəzinin inşasında zəhməti olanlara öz minnətdarlığını bildirir.

Bu günlər kənd sakinləri daha bir izdihamlı günü yaşadı və parkın təntənəli açılışı oldu. Mərasimi Rayon icra hakimiyyətinin başçısı M. Quliyev açdı və bu mədəniyyət və istirahət parkının son illər rayonda aparılan tikinti quraşdırma və abadlıq işlərinin davamı kimi qiymətləndirdi.

M. Quliyev öz çıxışında qeyd etdi ki, kəndlərdə aparılan bu cür abadlıq işlər ölkə başçısı cənab İlham Əliyevin tapşırığı əsasında həyata keçirilir. Bu gün kəndlərimizdə müasir tipli məktəblərin inşa olunması, yolların abadlaşdırılması, mədəniyyət və istirahət parklarının salınması əhalinin istirahətinin daha yaxşı təşkil edilməsinə göstərilən



diqqət və qayğı olmaqla yanaşı, həm də kəndlərlə şəhər arasında olan fərqin aradan qaldırılması kimi qiymətləndirilməlidir.

M. Quliyev daha sonra bildirdi ki, bu cür abadlıq işləri nəinki Eynallı kəndində, eləcə də rayonun bütün kəndlərində davam etdirilir.

Yığıncaqda çıxış edən kənd ağsaqqalı Teyyub Hüseynov son illər rayonda aparılan tikinti-abadlıq işlərinin nəticəsi olaraq Ağstafanın görkəminin əsaslı surətdə dəyişdiyini qeyd etdi və bütün bunlara görə möhtərəm prezidentimiz İlham Əliyevə, rayon rəhbərliyinə dərin minnətdarlığını bildirdi. O, öz çıxışında parkın tikintisində böyük əməyi olan kənd bələdiyyəsinin sədri İltifat Əliyevə də kənd sakinləri adından təşəkkür etdi.

Rayon icra hakimiyyətinin başçısı M.Quliyev yığıncağın sonunda parkın açılışını bildirən rəmzi qırmızı lenti kəsdi və kənd sakinləri ilə parkda təşkil olunmuş çay süfrəsi arxasında səmimi söhbət apardı.

# Uğurlu nəticələr

***2014-cü il rayonun pedaqoji işçiləri üçün ən uğurlu illərdən biri olmuşdur. Həmin ildə rayonun ümumtəhsil məktəblərinin maddi-texniki bazalarının möhkəmləndirilməsi, şagirdlərin təlim-tərbiyəsi işinin daha da yaxşılaşdırılması istiqamətində bir çox işlər görülmüşdür.***

- Ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü ilə əlaqədar ümumtəhsil məktəblərinin VII-XI sinif şagirdləri arasında "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda inşa yazı müsabiqəsi keçirilmiş, rayon turunun qalibi İbrahimova Sevinc İqbal qızı (Dağkəsəmən kənd 1 saylı məktəb) respublika mərhələsində IV yeri tutmuşdur.
- Ümumtəhsil məktəblərinin şagirdləri tərəfindən Azərpoçt Dövlət Müəssisəsinə göndərilmiş 2428 ədəd inşa təhsil şöbəsində yoxlanılmış, 6 nəfər qalibin inşası respublika turuna göndərilmişdir. Ağstafa şəhər 2 saylı orta məktəbin şagirdi Hüseynova Fatimə Əfqan qızının yazdığı inşa respublikada birinci yerə layiq görülmüşdür.
- Ağstafa Uşaq Gənclər İdman məktəbinin 12 yaşlılardan ibarət komandası AFFA tərəfindən keçirilən Azərbaycan çempionatında zona yarışlarında birinci yeri tutmuş və finalda iştirak etmişdir. 13 yaşlılardan ibarət komanda isə AFFA tərəfindən keçirilən Azərbaycan çempionatında zona yarışlarında ikinci yeri tutmuşdur.
- "Şahin" hərbi-idman oyununun rayon turunun qalibi Həsənsu kənd orta məktəbinin komandası zona turunda 1-ci yeri tutmuş, respublika turunda 19 komanda içərisində 9-cu yerə layiq görülmüşdür.
- "Sərhəd" hərbi-idman oyununun zona turunda 1-ci yeri tutmuş Sadıxlı kənd orta məktəbin komandası respublika turunda 10 komanda içərisində 5-ci yeri tutmuşdur.
- Zəlimxan kənd orta məktəbin məzunu Cəfərov Qismət Qalib oğlu tam orta təhsil sahəsində əldə etdiyi nailiyyətlərə görə Təhsil Nazirinin müvafiq əmrilə "Qızıl medal"a layiq görülmüşdür.
- Ali məktəblərə qəbul imtahanı verən məzunların 16 nəfəri 600-dən, 37 nəfəri isə 500-dən çox bal toplamışdır. 14 nəfər Ali Hərbi məktəblərə, 4 nəfər isə Cəmşid Naxçıvanski adına hərbi məktəbə qəbul olunmuşdur. Ümumiyyətlə, 263 nəfər Ali məktəblərin tələbəsi adına layiq görülmüşdür.
- "İlin ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində şəhər 1 saylı və Dağkəsəmən kənd 1 saylı tam orta məktəbləri qalib sayılmışlar.
- "İlin ən yaxşı müəllimi" müsabiqəsində İsgəndərov Yaşar Çoban oğlu (Saloğlu qəsəbə tam orta məktəbdə gənclərin çağırışıqədərki hazırlığı rəhbəri), Nəsirov Ramiz Rəfayıl oğlu (texniki-humanitar liseyin tarix müəllimi) qalib olmuşlar.
- Eynallı kənd tam orta məktəbi üçün 300, Kolxəlfəli kənd tam orta məktəbi üçün 220 şagird yerlik tədris ocağı inşa edilmişdir.

# Təbrik teleqramları

## *Rayon mərkəzi xəstəxanasının baş həkimi İlham Mustafayev*

- Əzizhəmkarlarım! 2014-cü illə vidalaşacağımıza çox az vaxt qalıb. Yola salacağımız ildə bizim hamımızın məqsədi insanların sağlamlığı keşiyində dayanmaq olmuş və bu şərəfli vəzifənin öhdəsindən demək olar ki, layiqincə gəlmişik. Mən əminəm ki, tibb işçilərimiz öz andlarına bundan sonra da sadiq qalacaq, üzərlərinə düşən şərəfli vəzifənin layiqincə yerinə yetirilməsi üçün əllərindən gələni edəcəklər.

Qarşıdan yeni il gəlir. Mən 2014-ci ildə sizlərə daha böyük uğurlar, xoşbəxtlik, ailə səadəti arzulayır, hamınızı yeni il, dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə ürəkdən təbrik edirəm.

## *Fərhad Vəliyev, Rayon təhsil şöbəsinin müdiri*

- Əziz müəllimlər! Hamı kimi biz pedaqoji işçilər də 2014-cü ilin son günlərini yaşayırıq. Böyük fəxrlə deyə bilərəm ki, vidalaşacağımız 2014-cü il Ağstafanın pedaqoji işçiləri üçün sözün əsl mənasında yaddaqalan illərdən biri olacaqdır.

2014-cü ildə iki təhsil müəssisəmiz "İlin ən yaxşı məktəbi", iki nəfər müəllimimiz "İlin ən yaxşı müəllimi" adına layiq görülmüş, rayonda bir neçə yeni məktəb binası inşa olunmuş, ali və orta ixtisas məktəblərinə daxil olan məzunlarımızın sayı xeyli artmışdır.

Bu müvəffəqiyyətlər sizlərin hamınızın gərgin əməyinin nəticəsidir. Mən əminəm ki, növbəti illərdə biz daha böyük uğurlu nəticələr əldə edəcək, gənc nəslin təlim-tərbiyəsi işini ən yüksək səviyyəyə qaldıracağıq. Bu möhtəşəm vəzifələrin həyata keçirilməsində sizlərə daha böyük uğurlar arzulayır və qarşıdan gələn dünya azərbaycanlılarının beynəlxalq həmrəylik günü münasibətilə ürəkdən təbrik edir, yeni ildə hamınıza xoşbəxtlik, ailə səadəti arzulayıram.

## *Gülgün Kərimov, Rayon mədəniyyət və turizm şöbəsinin müdiri*

- Mənim əziz həmkarlarım! Yeni il qapımızın astanasındadır. Ölkəmizin bütün vətəndaşları üçün uğurlu illərdən biri olan 2014-cü il Ağstafa rayonunun bütün mədəniyyət işçiləri üçün də uğurlu və yaddaqalan illərdən biri olacaqdır.

Yola saldığımız ildə rayonda keçirilən bütün mədəni kütləvi tədbirlərdə, bayram şənliklərində rayon mədəniyyət şöbəsinin işçilərinin fəal iştirak etməsi ağstafalıların qəlbində silinməz izlər qoymuşdur.

Mən fürsətdən istifadə edib öz vəzifələrini layiqincə yerinə yetirən bütün mədəniyyət işçilərimizə dərin minnətdarlığımı bildirir və sizlərin hamısını dünya azərbaycanlılarının həmrəylik günü və yeni il münasibətilə ürəkdən təbrik edir, qarşıdan gələn ildə hamınıza böyük uğurlar arzulayıram.

# Vətənin yüksək mükafatı

***Əsası on doqquzuncu əsrin yetmişinci illərində qoyulan Dağkəsəmən kənd 1 saylı tam orta məktəbində yaxşı bir ənənə formalaşıbır: bilikli uşaqların sayını ildən-ilə artırmaq və ali məktəblərə gedən yollara iz salmaq. Pedaqoji və şagird kollektivləri neçə illərdir ki, bu uğurda əzmlə çalışır, istədiklərinə nail olurlar.***

Qədim ənənəyə malik olan məktəbə Mahir Nəbiyev rəhbərlik edir. Yeni Azərbaycan Partiyasının fəal üzvü olan məktəb direktoru söhbət zamanı qeyd etdi ki, bizim tədris müəssisəsi həmişə qabaqcıl olmağa can atıb. Çünki bizim məktəbdə zəif müəllim yoxdur. Mən hər bir tədris ili uğurla yekunlaşıbdır. Lakin 2013-2014-cü tədris ili və cari dərs ili daha səmərəli və daha uğurlu il kimi yadda qalacaqdır. Məsələn, ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü ilə əlaqədar ümumtəhsil məktəblərinin VII-XI sinif şagirdləri arasında "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda inşa yazı müsabiqəsində X sinif şagirdimiz Gültac İbahimova respublika mərhələsində 4-cü yeri tutmuşdur. Azərbaycan tarixi fənninə həsr edilmiş iki mərhələdən ibarət keçirilən yarışda məktəbimizin komandası 1-ci yeri tutmuşdur.

Bəli, 519 nəfər şagirdin təlim-tərbiyəsi ilə məşğul olan 108 nəfər müəllimin



onların adlarını çəksəm uzun bir siyahı alınar. Cəsarətlə deyə bilərəm ki, ötən tədris ilinin nəticələrinə görə "İlin ən yaxşı məktəbi" adına layiq görülməyimizdə bütün müəllimlərimizin, o cümlədən şagirdlərimizin əməyi vardır.

Şagirdlərimizin fəallığını ona görə qeyd edirəm ki, onlar keçilən dərsləri yaxşı mənimsəyib dərk ediblər. Məsələn, məzunlarımızın 19 nəfəri tələbə adına layiq görülübdür. Zaur Ayralov 677 balla Dövlət İdarəçilik Akademiyasına qəbul olunmuş, hətta Prezident təqaüdünə layiq görülmüşdür. Gültac İbrahimova 637 bal, Elvin Bayramov 624 bal, Fərid Bayramov 623 bal toplayaraq ölkəmizin ən nüfuzlu ali məktəblərinə qəbul olunmuşlar.

İyirmi il məktəbə rəhbərlik edən Mahir müəllim daha sonra qeyd etdi ki, məqsədi, arzusu məktəbdə dərin kök salmış ənənəni qoruyub saxlamaqdan və uğurla davam etdirməkdən ibarətdir. Burada fənlər kabinet üsulu ilə, qabaqcılların iş təcrübəsindən yaradıcılıqla istifadə etməklə tədris olunur. Açıq dərslərin müntəzəm keçirilməsinə, valideynlərlə fikir mübadiləsinin yaranmasına ciddi fikir verilir. Şagirdlərə vətənpərvərlik ruhu aşılanır, milli mentalitetdən irəli gələn xüsusiyyətlər izah edilir.

Cari dərs ilinin başa çatmasına hələ xeyli vaxt qalmışdır. "İlin ən yaxşı məktəbi"nin pedaqoji və şagird kollektivləri bu mükafatdan ruhlanaraq bu dərs ilini də uğurla, dərin bilik və savadla başa vurmaq əzmindədirlər. Direktorun dediyi kimi, ümid edirik ki, belə də olacaqdır.

***Q. Qurbanov***

# Yüksək mükafata layiq görüldü



Ölkə başçısı möhtərəm prezidentimiz cənab İlham Əliyevin respublikamızın bir qrup müəlliminin əməyini yüksək qiymətləndirməsi barədə sərəncamı Ağstafanın təhsil işçilərinin də böyük sevincinə səbəb olmuşdur. Həmin sərəncama əsasən Saloğlu qəsəbə kənd tam orta məktəbinin müəllimi Yaşar Çoban oğlu İsgəndərov "İlin ən yaxşı müəllimi" adına layiq görülmüşdür.

Yaşar İsgəndərov M.F.Axundov adına Dillər İnstitutunun rus dili və ədəbiyyatı fakultəsini, ali siyasi məktəbi fərqlənmə diplomu ilə bitirdikdən sonra bir müddət komsomol işində çalışmışdır. Y. Nuriyev sonralar ixtisası üzrə Saloğlu qəsəbə tam orta məktəbində müəllim işləmiş, 1992-ci ildən hal-hazıradək isə həmin məktəbdə ibtidai hazırlıq müəllimi kimi şərəfli vəzifəni daşıyır.

Yaşar müəllim ötən illərdə özünün bacarığı, qabiliyyəti ilə işlədiyi kollektivdə, eləcə də rayonun ümumtəhsil məktəblərində çalışan hərbi hazırlıq müəllimləri arasında xüsusilə fərqlənmişdir. Onun yeni təlim metodikası və məktəblərdə hərbi hazırlıq işlərinin təşkili mövzusunda elmi məqalələri bir neçə dəfə yerli və respublika mətbuatında dərc olunmuşdur. Y. Nuriyev işlədiyi məktəbdə hərbi idman oyunlarında iştirak etmək üçün "Şahin" adlı komanda yaratmışdır. Bu komanda ötən illərdə bir neçə dəfə zona, respublika yarışlarında iştirak edərək yüksək mükafatlara layiq görülmüşdür.

"Şahin" komandası ayrı-ayrı nominasiyalarda isə bir neçə dəfə respublika çempionu adına layiq görülmüşdür.

"Şahin" komandasının uğurları Rayon təhsil şöbəsi tərəfindən dəfələrlə yüksək qiymətləndirilmişdir. Komandanın uğurlarını nəzərə alan ANAMA-nın rəhbərliyi bu komandaya həmişə diqqət və qayğı göstərmiş və keçən il həmin təşkilat tərəfindən üzərində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şəkli olan hərbi dəniz geyimləri hədiyyə edilmişdir. "Şahin" komandasının böyük uğurlar qazanmasında Saloğlu qəsəbəsinin ərazisində yerləşən hərbi hissələrin də böyük rolu olmuşdur.

Yaşar İsgəndərov bütün bunlarla yanaşı ölkəmizdən uzaqlarda da keçirilən yarışlarda, müsabiqələrdə iştirak etmişdir. O, 2006-cı ildə Moskva şəhərində açıq təhsil institutunun qrup rəhbəri kimi ölkəmizi təmsil etmiş və dəyirmi masa arxasında keçirilən tədbirdə erməni nümayəndələrinə layiqli cavablar vermişdir.

Yaşar İsgəndərovun əldə etdiyi nailiyyətlər bu günlərdə də yenidən qiymətləndirilmiş və o, ölkə başçısının sərəncamı ilə ikinci dəfə "İlin ən yaxşı müəllimi" adına layiq görülmüşdür.

Təbrik edirik!

***İ. Əliyev***

# Yazıçının uğuru



Cari ilin dekabr ayı ərzində Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, Ağstafa rayon Təhsil Şöbəsinin aparıcı məsləhətçisi, II dərəcəli dövlət qulluqçusu Əli Cəfəroğlu bir çox yeni uğurlara imza atmışdır. Belə ki, onun "Palitra" qəzetində dərc edilmiş "Qaçqın və məcburi köçkünlərin problemləri insan haqları müstəvisində" adlı məqaləsi Azərbaycan Respublikasının İnsan Haqları üzrə Müvəkkilinin (Ombudsmanın) ənənəvi olaraq keçirdiyi "Hüquqlar hamı üçün" mövzusunda jurnalist yazıları müsabiqəsində II yeri tutmuşdur. Bu münasibətlə həmyerlimiz dekabr ayının 10-da Bakı şəhərində Beynəlxalq İnsan Haqları günü münasibətilə Azərbaycan Respublikasının İnsan Haqları üzrə Müvəkkili, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, YUNİSEF və Ümidli Gələcək Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilmiş konfransda iştirak etmiş və Ombudsman tərəfindən mükafatla təltif olunmuşdur.

# Yollar abadlaşır

Xeyli vaxt idi ki, şəhərimizdə Bakı-Qazax dəmiryol xəttinin sağ tərəfində yerləşən R.Əsədov küçəsində yenidənqurma və abadlıq işləri aparılırdı. İnşaatçıların gərgin əməyi sayəsində küçənin xırlanması və səkilərə tamet daşların düzülməsi işi tam başa çatdırılmış, küçənin işıqlandırılması təmin edilmişdi.

Yeni il ərəfəsində küçəyə asfalt örtüyün salınması işi də yekunlaşdırılmışdı.

Dekabrın 29-da qəzetimiz çapa gedərkən redaksiyamıza bildirdilər ki, R.Əsədov küçəsinin təntənəli surətdə açılışı olmuşdur.



## *Bizə yazırlar*

# Minnətdarlığımı bildirirəm

Hörmətli redaksiya, həyatda elə bir insan tapılmaz ki, onun nə vaxtsa canı ağrımasın, həkimə işi düşməsin. Belə bir hadisə bu günlər hamı kimi mənim də başıma gəldi. Xeyli vaxt idi ki, qarın boşluğumdakı ağrılar mənə əzab verirdi. Son vaxtlar bu ağrılar daha da kəskinləşdi və mən Rayon mərkəzi xəstəxanasında cərrahiyyə şöbəsinin müdiri Ənvər Hacıyevin yanında oldum. Ənvər həkim təcili olaraq mənim üzərimdə əməliyyat aparılmasını bildirdi və səhəri gün əməliyyat olundum.

Əsəblərim gərgin olduğuna görə əməliyyat olunandan bir neçə saat sonra məndə kollaps vəziyyəti yarandı. Şöbənin həkimləri Ənvər Hacıyev, Elvin həkim və tibb bacısı Seyran Vəliyeva mənim köməyimə çatdılar və məni vəziyyətdən çıxarıb, ölümün pəncəsindən xilas etdilər. Mən həmin anları bütün ömrüm boyu unutmayacaq, mənə şəfalı əllərini uzadaraq yenidən həyata qaytaran bütün tibb işçilərinə dərin minnətdarlığımı bildirirəm.

***Aydın Tağızadə,***
***Ağstafa şəhər sakini***

# Dünyasını dəyişsə də...



Bu dünya müvəqqəti dünyadır deyənlər heç də yanılmamışlar. İnsan həyata göz açdığı ilk gündən ömrünün sonunadək nə edirsə onun ömür-gün səhifəsinə yazılır və dünyasını dəyişdikdən sonra barəsində iki fikir söylənilir. Yaxşı insanlar ictimaiyyət tərəfindən tez-tez xatırlanılır və söhbətin sonunda belə insanlar haqqında deyirlər. Allah ona rəhmət eləsin.

Belə insanlardan biri də Xətai kənd sakini Qasımov Qəməndər İmaməli oğludur.

Q. Qasımov ömrünün 90-cı ilində, daha doğrusu bu il noyabr ayının 15-də bu dünya ilə əbədi olaraq vidalaşmışdır. Qəməndər Qasımov dünyasını dəyişsə də nəinki qohum-əqrəbasının, yaşadığı kəndin sakinlərinin və eləcə də yüzlərlə ağstafalının qəlbində əbədi yaşayacaqdır.

Q, Qasımov hələ sovet dövründə 50 ilə yaxın mühasib işləmişdir. O, bu əmək stajının yarıdan çoxunu yaşadığı Xətai kəndindəki Ağamalıoğlu adına sovxozda qazanmışdır. Təcrübəli mühasib həmin illər ərzində yaxşı işi ilə özünə dərin hörmət qazanmış, onlarla gənc mühasibə bu peşənin sirlərini öyrətmişdir. Q. Qasımova el arasında hamı sadəcə olaraq Qəməndər dayı deyə müraciət edərdi. O illərdə rayonda seçilib-sayılan işlərdə çalışan, Ağamalıoğlu adına sovxoza qonaq gələn elə bir adam tapılmazdı ki, Qəməndər dayı ilə oturub bir stəkan çay içməsin, onun çörəyini yeməsin.

Q. Qasımov bacarıqlı mütəxəssis, gözəl insan olmaqla yanaşı, həm də mehriban, qayğıkeş bir ailə başçısı olmuşdur. Onun oğlanları Vidadi, Vaqif, Əli, Nəsimi Qasımovlar heç də atalarından geri qalmırlar. Onların hər biri rayonun ən hörmətli sakinləri sayılırlar.

Bu gün Qəməndər Qasımov bizlərin arasında deyildir. Lakin buna baxmayaraq Qəməndər dayı onu tanıyanlar tərəfindən tez-tez xatırlanılır.

Q. Qasımovun dünyasını dəyişməsini eşidən onlarla rayon sakinləri bu el ağsaqqalının vəfatı ilə əlaqədar başsağlığı vermək üçün "Ağstafa" qəzeti redaksiyasına müraciət etmişlər. Bu gün biz həmin vətəndaşların müraciətlərini nəzərə alıb, onların hamısının adından, eləcə də "Ağstafa" qəzetinin bütün oxucuları adından Q. Qasımovun ailəsinə, yaxın qohumlarına dərin hüznlə başsağlığı verir və deyirik:

- Allah sənə rəhmət eləsin Qəməndər dayı!

## Etibarsız sayılır

Dağkəsəmən kənd sakini Muradov Ələsgər İmran oğlunun adına verilmiş JN-592B saylı Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Xətai kənd sakini mərhum Musayev Rüstəm Səməd oğlunun adına olan JN-838 saylı Torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Qırılı kənd sakini Əmrahov Elşad Ramiz oğlunun adına olan AD № 0015254 nömrəli hərbi şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

* * *

Aşağı Kəsəmən kənd sakinləri Məhərrəmov Əkbər İbrahim oğlunun və Məhərrəmova Midvari Məmmədhüseyn qızının adlarına olan Torpağa mülkiyyət hüququna dair JN-333 nömrəli (kod 50205018) Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Mədətov Elxan Kərim oğlunun adına verilmiş AA-197864 nömrəli məcburi köçkün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

Yenigün kənd sakini Qarayev Oktay Fəxrəddin oğlunun adına olan hərbi bilet itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*

*Şəadətnamə № 308*

***Redaksiya heyəti***

***L.Eyyubova, K.Abbasov, V.Əkbərov, İ.Əliyev, N.Mehdixanlı, F.Vəliyev, İ.Mustafayev, A.Tağızadə***

***Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.***

***Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10 Tel: 5-14-56 mob: (050) 344-26-20 Tiraj: 1000***